KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www.Diplomata-kurdi.com

№ 09 (157), 12 - 18 mart, Adar - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti, Hêjaye, 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



## Gürcüstan Prezidenti Mixail Saakaşvilinin şərəfinə rəsmi ziyafət verilmişdir

Səh. 2



## Nêçîrvan Barzanî bi fermî ji bo serokwezîriyê hate erkdarkirin

## КРГ поздравляет курдов с годовщиной Мартовского восстания

Səh. 15

## AZƏRBAYCAN MƏNBƏLƏRI KÜRD XALQI HAQQINDA

Səh. 4



Səh. 12

Mesrûr Barzanî: Dewleta kurdî mafekî me yê sirûştî ye



Səh. 8-9

Simko inqilabının Kürdüstan və Azərbaycan tarixində önəmi və rolu



Səh. 3

DÜMBÜLÜ KÜRD TAYFASINDAN OLAN FƏTƏLİ XAN XOYSKİ



Səh. 12

Demîrtaş Serokwezîrê Tirkî bi fermandayîna bombebaranê tawanbar kir



Səh. 11

HƏLƏPÇƏ FACİƏSİ HEÇ ZAMAN UNUDULMAYACAQ



Səh. 13

Kılıçdaroğlu: "Siyasi həyatımı bu ölkə üçün fəda etməyə hazıram"



Səh. 6

Ax, Helepçe!



Səh. 12

BDP biryar da Newroza îsal 10 roj bin

# Gürcüstan Prezidenti Mixail Saakaşvilinin şərəfinə rəsmi ziyafət verilmişdir

Prezident İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixail Saakaşvilinin şərəfinə rəsmi ziyafət verilmişdir.

"Bizim şəxsi və dövlətlərarası münasibətlərimiz gözəl tarixə malikdir və dostluğa, qardaşlığa, qarşılıqlı dəstəyə əsaslanır", - deyən Prezident İlham ƏLİYEV əmin olduğunu bildirdi ki, bu münasibətlərin gözəl gələcəyi vardır.

Prezident İlham Əliyev səfər çərçivəsində müzakirə olunan məsələlərə toxunaraq dedi ki, danışıqlarda ikitərəfli münasibətlərin gündəliyi, regional və beynəlxalq məsələlər müzakirə olunub.

Gürcüstan ilə Azərbaycan arasında münasibətlərin gələcəyi ilə bağlı tam qarşılıqlı anlaşmanın olduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, bu münasibətlərin möhkəm əsası vardır. Bundan əlavə, xalqlarımız arasında sıx qonşuluq tarixi mövcuddur və müstəqillik illərində bu münasibətlər daha da möhkəmlənib.

"Budəfəki danışıqlar zamanı ikitərəfli münasibətlərin gələcək prioritetləri müəyyənləşdirilib və əminəm ki, əməkdaşlığın müsbət nəticələri gələcəkdə daha da çoxalacaq", - deyən Prezident İlham Əliyev iki ölkə arasında nəqliyyat və enerji təhlükəsizliyi ilə bağlı layihələrdən danışdı. Bildirdi ki, bu istiqamətlərdə səylər nə qədər sıx əlaqələndirilsə həmin layihələrin uğuru o qədər çox olacaqdır.

Azərbaycanın və Gürcüstanın beynəlxalq təşkilatlarda bir-birini daim dəstəklədiyini deyən dövlətimizin başçısı ikitərəfli münasibətlərin nadir xarakter daşıdığını bildirdi.

Gürcüstana və gürcü xalqına böyük hörmətlə yanaşdığını deyən Prezident İlham Əliyev vurğuladı ki, Gürcüstan böyük ənənələri, zəngin mədəniyyəti və qədim tarixi olan ölkədir. Azərbaycanın Gürcüstanın əldə etdiyi uğurlara sevindiyini deyən dövlətimizin başçısı qeyd etdi ki, uğurlu inkişaf yalnız səylərin sıx birləşməsi nəticəsində mümkündür. "Azərbaycan və Gürcüstan iki dost və iki qardaşdır. Belə olub, belədir və belə də olacaq", - deyə Prezident İlham Əliyev vurğuladı.

Gürcüstan Prezidenti Mixail SAAKAŞVİLİ ölkələrimiz arasında mövcud münasibətlərdən danışdı, xalqlarımızın bir-birinə olan hörmət hisslərinin tarixdən qaynaqlandığını diqqətə çatdırdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmiz qarşısındakı xidmətlərini yüksək qiymətləndirən Prezident Mixail Saakaşvili onunla



görüşlərini xatırladı.

Hər səfərində Azərbaycanda böyük dəyişikliklərin şahidi olduğunu, ölkəmizdə gedən inkişafın onu sevindirdiyini deyən Gürcüstan Prezidenti Azərbaycanın gözəl perspektivə malik ölkə olduğunu bildirdi. Gürcüstan dövlətinin başçısı Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilməsini ölkəmizin gələcək uğurlarından xəbər verdiyini dedi. Vurğuladı ki, Azərbaycandakı inkişaf Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində mümkün olub. "Bu gün Gürcüstanın belə sürətlə inkişaf etməsini Azərbaycanın dəstəyi olmadan təsəvvür etmək mümkün deyil", - deyən Prezident Mixail Saakaşvili Azərbaycanın Gürcüstana çətin məqamlarda köməyini xatırlatdı və gürcü xalqının bunu heç vaxt unutmadığını vurğuladı. "Əminəm ki, Azərbaycan sonadək güclü və müstəqil dövlət olacaqdır", - deyən Prezident Mixail Saakaşvili Azərbaycan-Gürcüstan dostluğunun gələcək nəsillərə ötürüləcəyinə inandığını diqqətə çatdırdı.

## İlham Əliyev Tofiq Bəhrəmov adına Respublika Stadionunda həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur



Prezidenti İlham Əliyev Tofiq Bəhrəmov adına Respublika Stadionunda həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.

Tofiq Bəhrəmov adına Stadionda görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, ümumi sahəsi 85 min 700 kvadratmetr olan stadionda əsaslı təmir və yenidənqurma işlərini Koreya Respublikasının "Samhoa" şirkəti həyata keçirir. 29 min 870 tamaşaçı yeri olan stadionda daha 2500 yer artırılacaq və nəticədə tamaşaçı yerlərinin sayı 31 min 200-ə çatacaqdır. Burada "ailə otağı" adlanan 16 xüsusi otaq inşa olunacaqdır.

Təzə inşa olunan tribunanın alt hissəsində 4 komanda üçün eyni vaxtda soyunub-geyinmə otağı tikilir. Tribunada mətbuat üçün kompyuterlərlə təchiz ediləcək 500 nəfərlik xüsusi yer ayrılacaqdır. Burada, eyni zamanda, 500 nəfər üçün VİP yerlər təşkil olunacaq və VİP restoran fəaliyyət göstərəcəkdir.

Stadiondakı oturacaqların tamamilə yenidən qurulacağı qeyd olundu. Bunun üçün bütün oturacaqların alt hissələrinin təzədən betonlandığı bildirildi. Stadionun su, kanalizasiya və işıqlandırma sistemləri tamamilə yenidən qurulacaqdır.

FİFA-nın və UEFA-nın standartlarına uyğun olaraq stadionun hasarı boyu hər biri 250 nəfərlik yeni sanitariya qovşaqları inşa edilir. Stadionda əlavə olaraq üç yarımstansiyanın inşa ediləcəyi nəzərdə tutulur. Köhnə işıq dirəkləri söküləcək, yeni işıqlandırma sistemi oturacaqların üstündə xüsusi qurğulara birləşdiriləcəkdir. Oturacaqların üst hissəsini saxlamaq üçün 12 metr dərinlikdə dirəklər svalyarla bərkidiləcəkdir. Hər biri 200 tona qədər yükə davamlı olan bu dirəklər, 90 ton yük götürəcəkdir.

Tikintidə əsasən Koreya və yerli inşaat materiallarında istifadə olunur. Yeni quraşdırılacaq konstruksiyanın üstü Almaniya istehsalı olan membran qatı ilə örtüləcəkdir. Stadionun girişində turniketlər qurulacaqdır. Əlavə tikinti işlərindən sonra meydandakı qaçış zolaqları yenilənəcək, meydanın ot örtüyünün alt hissəsində drenajlar və isitmə sistemləri quraşdırılacaq, ot örtüyü təzələnəcəkdir. Stadion əlavə kamera sistemləri ilə təchiz ediləcəkdir.

Həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.



## İlham Əliyev Fransanın mədəniyyət və kommunikasiya nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Prezident İlham Əliyev Fransa Respublikasının mədəniyyət və kommunikasiya naziri Frederik Mitteranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlət başçısı Azərbaycan ilə Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Mədəniyyətlə bağlı keçirilən çoxsaylı tədbirlərə toxunan Prezident İlham Əliyev əlaqələrimizin sürətli inkişafında bu tədbirlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın Fransada təqdimatı çərçivəsində mədəniyyət sahəsi ilə bağlı keçirilən tədbirlərin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Bakıda təşkil olunacaq sərginin də bu sahədə əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət edəcəyini dedi. Dövlətimizin başçısı Fransa Respublikasının mədəniyyət və kommunikasiya naziri Frederik Mitteranın ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən Fransa Respublikasının mədəniyyət və kommunikasiya naziri Frederik Mitteran dedi: "Cənab Prezident, qəbula görə Sizə minnətdaram, atanız Heydər Əliyevin layiqli davamçısı kimi Sizinlə görüşümdən böyük şərəf duyuram".

Nazir Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mədəniyyət sahəsindəki fəaliyyətini yüksək qiymətləndirərək onun təşəbbüsü ilə Fransada keçirilən təqdimat tədbirlərinin Azərbaycanın tanınmasında böyük rol oynadığını qeyd etdi. Bakıda keçiriləcək "Fransa inciləri. Fransız incəsənəti Renessansdan bu günədək" sərgisinin də Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə təşkil olunduğunu vurğulayan Frederik Mitteran ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın bir sıra istiqamətlərdə genişləndirməyin zəruriliyini bildirdi.

# FƏTƏLİ XAN İSGƏNDƏRXAN OĞLU XOYSKİ, DÜMBÜLÜ KÜRD TAYFASINDAN OLAN MƏŞHUR AZƏRBAYCAN KÜRDÜDÜR. O, AZƏRBAYCAN CÜMHURİYƏTİNİN BAŞ NAZİRİ OLMUŞDUR



**Əvvəli ötən sayımızda**

Rusiyada 1917-ci il Fevral inqilabından sonra yaranmış əlverişli şəraitdə onun dərhal geniş siyasi fəaliyyətə qoşulması da həmin sahədə artıq zəngin təcrübə qazanmasından irəli gəlmişdi. O, 1917-ci ilin martında Bakıda yaradılmış Milli Müsəlman Şurası müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilir. Həmin ilin aprelində isə Bakıda çağırılmış Ümumqafqaz Müsəlmanları Qurultayında iştirak edir.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya qanunvericilik orqanı olan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlardan ibarət Zaqafqaziya seymi fəaliyyətə başlayır. Seymin müsəlman fraksiyasına F.Xoyski də daxil idi.

1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi müstəqil Zaqafqaziya Federativ Respublikasını yaratdı. Aprelin 26-da yaradılmış yeni Zaqafqaziya hökumətində F.Xoyski ədliyyə naziri vəzifəsini tutdu. Lakin Zaqafqaziya Federasiyası da nə xarici, nə də daxili siyasətdə elə bir mühüm dəyişikliyə nail ola bilmədi, daha doğrusu, çox mürəkkəb siyasi vəziyyətdə Zaqafqaziyanın üç əsas millətinin iradəsini ifadə etməyə qadir olmadığını nümayiş etdirdi. 1918-ci il mayın 26-da son iclasına toplaşmış Seymi gürcü nümayəndələri tərk edərək Gürcüstanın istiqlaliyyətini elan edirlər. Mayın 27-də F.Xoyskinin də daxil olduğu Seymin azərbaycanlı deputatları Azərbaycan Milli Şurasını yaradırlar. Mayın 28-də Milli Şura Azərbaycanın istiqlaliyyəti haqqında bəyannaməni elan edir və hökuməti təşkil etməyi F.Xoyskiyə tapşırır. Həmin gün F.Xoyskinin təqdimatı ilə Nazirlər Şurasının tərkibi təsdiq edilir.

May ayının 30-da o zamankı dünyanın 20-yə yaxın əsas mərkəzlərinə aşağıdakı məzmunda radioteleqram göndərilir: "Xarici işlər nazirinə. Gürcüstanın çıxması və Zaqafqaziya Federativ Respublikasının dağılması ilə Azərbaycan Milli Şurası 1918-ci il mayın 28-də Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycanın istiqlaliyyətini elan etmiş, Azərbaycan Respublikasını yaratmışdır. Deyilənləri nəzərinizə çatdıraraq, zati-alinizdən bu barədə hökumətinizə xəbər verməniz rica edirəm. Milli hökumətim müvəqqəti olaraq Yelizavetopol şəhərində yerləşir. İmza Xoyski, Azərbaycan Respublikası Nazirlər Şurasının sədri".

Azərbaycan hökumətinin ilk addımlarından biri 1920-ci il iyunun 4-də Osmanlı imperatorluğu ilə "Sülh və dostluq" müqaviləsi imzalaması oldu. Bu müqavilə ilə Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk xarici dövlət kimi ona hərbi yardım göstərdi. Sonralar bu müqavilənin zəruriliyi Fətəli xan Xoyskinin 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin açılışındakı nitqində belə şərh edilirdi: "Türkiyə Azərbaycan sülhnaməsinin bir maddəsinə görə məmləkətimizə nə vaxt lazım olsa, hüququmuzun müdafiəsi üçün türklər bizə bir qədər əsgər verməli idilər. Ona görədir ki, darda qaldıqda bu çarəyə tənəssül edildi.

Bizim xaricdən qüvvə almaq üçün başqa millət və dövlətə müraciət etməyimiz bəzi şəraitdən mümkün deyildi: müraciət etsəydik də bir nəticə hasil olmazdı, ona görə də dindaş və millətdaşımız olan Türkiyəyə müraciət edildi".

1918-ci il iyunun 16-da Milli Şura və hökumət Gəncəyə köçdü. İyunun 17-də isə Milli hökumət o zaman türklərlə münasibətdə yaranmış gərginliyi aradan qaldırmağa müvəffəq oldu. Həmin gün Milli Şuranın Gəncədə keçirilən iclasında Azərbaycan Milli Şurasının buraxılması, bütün qanunverici və icra hakimiyyətinin Azərbaycan müvəqqəti hökumətinin əlində cəmləşdirilməsi haqda iki mühüm qərar qəbul edildi. Milli Şura F.Xoyskinin müxtəlif partiyaların nümayəndələrindən təşkil etdiyi yeni hökuməti təsdiq etdi. Hökumət proqramı ilə çıxış edən F.Xoyski bildirdi ki, onun başlıca vəzifəsi Azərbaycanın azadlıq və istiqlaliyyəti uğrunda mübarizə aparmaqdır. F.Xoyskinin rəhbərliyi ilə Azərbaycan hökuməti ilk növbədə dövlət aparatının təşkili işini davam etdirir. Nazirlər Şurası və ayrı-ayrı nazirliklərin aparatı yaradılır. İyunun 19-da Azərbaycan ərazisində hərbi vəziyyət elan olunur. İyunun 27-də Azərbaycan dili dövlət dili elan edilir. Avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qanun qəbul olunur. Bir sözlə, paytaxt Bakıya köçürülənə qədər F.Xoyski hökuməti ölkənin iqtisadi və siyasi həyatı ilə bağlı bir sıra mühüm tədbirlər də həyata keçirmişdi (poçt-teleqraf, pul məsələsi və s.). Hökumətin bu dövrdəki fəaliyyətini F.Xoyski obrazlı şəkildə "təlatüm içərisində qayalar arasında nazik taxta qayıqda gedən gəmiçinin vəziyyətinə" bənzətmiş və göstərmişdi ki, gərək həmin gəmiçi vəziyyətində bulunan hökumət qayığını elə aparmalı idi ki, daşa dəyib dağılmasın.

1918-ci ilin sentyabrın 15-də Bakı şəhəri azad edildikdən dərhal sonra, yəni sentyabrın 17-də ADR hökuməti Bakıya köçür. Bakı Azərbaycan dövlətinin paytaxtı elan olunur.

1918-ci il noyabrın 9-da F.Xoyskinin məruzəsi üzrə Azərbaycan hökuməti Azərbaycanın üçrəngli milli bayrağını təsdiq edir.

Məlum olduğu kimi, həmin dövrdə Azərbaycanda çox mürəkkəb bir vəziyyət yaranmışdı. Yəni, Birinci Dünya müharibəsində məğlub olmuş Türkiyə hökuməti 1918-ci il oktyabrın 30-da imzaladığı Mudros barışıcı əsasında öz qoşunlarını Azərbaycandan çıxarmış, noyabrın 17-də isə ingilislər Bakıya gəlmişdilər. Hələ daha əvvəl Ənzəlidə ingilis komandanlığı ilə aparılan danışıqlar heç bir müsbət nəticə verməmişdi.

Azərbaycan Milli Şurası belə çətin bir anda 1918-ci il noyabrın 19-dakı iclasında 120 nəfərdən ibarət Azərbaycan parlamenti yaratmaq haqqında hökumətin təqdim etdiyi qanun layihəsini bəyəndi.

Yeni yaradılmış Azərbaycan Respublikası parlamentinin 1918-ci il ilk iclasında F.Xoyski hökumətin çox mürəkkəb tarixi şəraitdə gördüyü işlər haqqında hesabat verir. Parlament hökumətin təşkilini və ona rəhbərliyi yenidən F.Xoyskiyə tapşırır. Dekabrın 26-da Fətəli xan hökumət proqramı və hökumətin tərkibi barədə parlamentdə çıxış edir. Bu hökumətdə F.Xoyski həm də xarici işlər naziri vəzifəsini tutur. 1919-cu ilin martında yaranmış böhranla əlaqədar F.Xoyski hökuməti istefaya çıxmışdı. Lakin F.Xoyski bundan sonra da siyasi fəaliyyətini davam etdirmişdi. Azərbaycan parlamentinin üzvü kimi, Fətəli xan siyasi, iqtisadi və maliyyə iclaslarının müzakirələrində yaxından iştirak edirdi. 1919-cu ilin dekabrında isə N.Yusifbəylinin təşkil etdiyi hökumətdə xarici işlər naziri vəzifəsini tutmuş və 1920-ci ilin aprel hadisələrinə qədər həmin vəzifədə çalışmışdı.

ADR-in süqutundan sonra Tiflis şəhərinə mühacirət etmiş F.Xoyski həmin il iyunun 19-da orada muzdlu erməni quldurları tərəfindən qətlə yetirilmişdi.

Yeri gəlmişkən, ADR-in tanınmış xadimlərindən biri X.Xasməmmədov 1933-cü ildə İstanbulda çıxan "Azərbaycan yurt bilgisi" jurnalında dərc etdirdiyi məqalə F.Xoyskini 28 mayın böyük qurbanı adlandırmış və böyük bir ümidlə bildirmişdi: "Şübhəsiz bir gün gələcək, Azəri türkləri də milli cümhuriyyətin bu fətrət (durğunluq) dövründən qurtulmuş olacaqdır. İştə o zaman hürr məmləkətimizin mədyun (borclu) və həqiqətli övladları, qürbət ellərin mətruk (tərk edilmiş) məzarıstanında istirahət edən mərhum Fətəli xanın baniyələrini, onun qəlbimizdə yaşayan əziz ruhu ilə bərabər milli yurda, çox görmüş və keçirmiş zavallı ölkəmizə nəql edəcək və şairin dediyi kimi ona kimsənin irişəməyəcəyi iftixarlı bir abidə dikəldəcəkdir".

Bunu bizim həm vicdanımız və həm də milli qürurumuz tələb etməkdədir" ("Dalğa" qəzeti, 18 may - 3 iyun, 1991-ci il).

F.Xoyskinin qohumları barədə. Yuxarıda göstərdiyimiz kimi, Fətəli xanın kiçik qardaşı Rüstəm xan da Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamış şəxsiyyətlərdəndir. O, qardaşının təşkil etdiyi ilk hökumətdə dəftərxana müdiri təyin olunmuş, 1919-cu il yanvarın 1-dək bu vəzifədə qalmışdır. 1918-ci il dekabrın 22-də F.Xoyskinin üçüncü hökumət kabinəsində sosial-təminat naziri təyin edilmişdi. O, sonralar N. Yusifbəylinin təşkil etdiyi birinci (14.09.1919) kabinədə sosial təminat, ikinci (24.12.1919) kabinədə isə sosial təminat və səhiyyə nazirinin müavini olmuşdur.

1920-ci ilin aprelindən sonra Azərb. SSR Dövlət Plan Komitəsində hüquq məsləhətçisi işləmiş, ilin sonunda Moskvaya köçərək orada ailə həyatı qurmuş və müxtəlif dövlət vəzifələrində çalışmışdır. F.Xoyski 1948-ci ildə Moskvada vəfat etmiş Novodeviçye qəbiristanlığında dəfn olunmuşdur.

Mövsüm Əliyevin Rüstəm xan Xoyski haqqında yazdığı məqalədən aydın olur ki, Fətəli xanın böyük qardaşı Hüseynqulu xan ABŞ-a mühacirət etmişdir. Çünki əmisi haqqında məlumatları məhz Hüseynqulu xanın oğlu Zahid xan Xoylu 1989-cu il avqust ayının 18-də ona bildirmişdir.

"Aydınlıq" qəzetinin 1990-cı il 4 avqust tarixli sayında E.Ağamalıyevanın "Fətəli xanın yadigarı" adldı məqaləsi dərc olunmuşdur. Fətəli xan Xoyskinin qızı Tamara xanım Hüseynova — Xoyskaya Mirzə Davud Hüseynova ərə getmiş, 1938-ci ildə onun güllələnməsindən sonra 19 il həbsxanalarda, düşərgələrdə yaşamağa məcbur olunmuşdu. Tamara xanım yalnız 1955-ci ildə bəraət qazanaraq vətənə qayıtmış, 60-70-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsində işləmişdir

## Sətri xəbərlər

* Avropa Parlamentində Suriya kürdlərinə dair konfrans keçiriləcək.
* İraqda keçirilən növbəti seçkilərdə kürd partiyaları vahid siyasi blok yaradacaqlar.
* Cənubi Kürdüstanın Süleymaniyyə şəhərində amerikalı müəllim şagirdi tərəfindən qətl edilmişdir. Mətbuat belə hesab edir ki, həmin müəllim müsəlmanlara xristian idealogiyasını təbliğ edirmiş.
* Türkiyə həbsxanalarında yüzlərlə daşatan uşaq həbsdədir. Həbsxanaların birində saxlanılan 8 kürd uşağı aclıq aksiyasına başlayıblar.
* Bolgariya və Kürdüstan muxtariyyatı arasında siyasi və iqtisadi əlaqələr genişlənir. Artıq kürd tələbələri Bolgariya universitetlərində təhsil almaq imkanları var. Həmçinin Bolgariya Kürdüstan iqtisadiyyatına investisiya qoymaq marağındadır.
* Fransada yaşayan kürd əsilli şairə Nazand Baqixani qadınlar üçün verilən ən ali mükafat – "Simona Landri" mükafatına layiq görülmüşdür. Xanım Baqixani uzun illər Avropa və kürd ictimayyəti arasında qadınlara qarşı törədilən zorakılıqla mübarizə aparmışdır, bu haqda bir sıra kitablar da nəşr etmişdir. Nazand xanım Fransada tanınmış ictimayi xadimlərimizdən biridir.
* Əhməd Davudoğlu: Türkiyə Suriya müxalifətinə silah yardımı edəcək.
* İraqın şimalında baş verən terror aktları nəticəsində 27 hərbiçi həlak olmuş, 5-i isə yaralanmışdır.
* İraqın vitse-prezidenti T.Əl-Haşimi: Mən Kürdüstanda qalacam.
* Liviyanın bir neçə əyaləti öz müstəqilliklərini elan etmişlər.
* Diyarbəkir (Aməd) çəhərində "Kürd dili" adlı konfrans keçirilmişdir.
* Almaniya tələbələr birliyinin bir çox üzvü bu ay Kürdüstanı ziyarət etmişlər, qonaqlar ölkənin gözəlliyinə, inkişafına valeh olmuşlar.
* Hollandiyada yaşayan mühacir kürdlər bəyanət veriblər ki, onları vətənləri Kürdüstana qaytarsınlar. Hal-hazırda bu məsələ ilə bağlı Kürdüstan hökuməti ilə danışıqlar aparılır.
* Martın 15-də Kürdüstanın paytaxtı Həvler şəhərində kürd gənclərinin Ümummilli konfransı keçiriləcək.
* Novruz bayramı zamanı Suriya kürdləri ölkə ərazisi çərçivəsində öz müxtariyyatlarını elan edəcəklər.
* Məsrur Barzani: Kürd xalqı müstəqilliyimizə hazır olan vaxt, müstəqilliyimizi elan edəcəyik.
* Azərbaycan, Türkiyə və İran öz dəmir yollarını birləşdirmək niyyətindədirlər. Bu birliyə İraq və Gürcüstanda qoşula bilər.
* Türkiyə hərbi hava qüvvələri yenidən Cənubi Kürdüstanın ərazilərini bombalamağa başlayıb
* İki kürd şəhəri – Həvler (İraq) və Urmiya (İran) arasında aviareyslər açılmışdır.

# AZƏRBAYCAN MƏNBƏLƏRİ KÜRD XALQI HAQQINDA

Azərbaycanın azadlıqsevər, mübariz və adlı-şanlı şairi Xəlil Rza Ulutürk, müstəmləkə altında əzilən xalqlar haqqında belə demişdir: **"Planetin hər hansı bir guşəsində azad olmayan bircə millət, bircə fərd qalıbsa, mən öz səadətimi tam saya bilmərəm. Bəşəriyyətin ayrılmaz və qüdrətli bir qanadı olan qəhrəman Kürd millətinin azadlığı, dili, adət və gələcəklərini yaşatması uğrunda mübarizə aparması ürəyimcədir."**

Şair qəhrəman kürd xalqının inqilabi mübarizəsini yüksək qiymətləndirmiş, dərdinə acımış, onun mübarizəsinə bir çox şeirlər həsr etmişdir. Şair bu xalqın işıqlı gələcəyinə inanaraq yazır:

**Hələ millətlər var ki,**
**Milliyəti danılır.**
**Köksündə dəvə qəlbi,**
**Fil ürəyi olsa da.**
**Müstəmləkə möhrüylə**
**Cırtdan kimi tanınır.**
**Hələ Həjar oxuyur:**
**-Kürdüstanım, dərdli Vətən,**
**Nalan Vətən!**
**Şər parçası bir vəhşinin**
**Pəncəsində qalan Vətən!**

***"Krasnodar qartalları" kitabı***



Xəlil Rza qəhrəman kürd xalqının azadlıq mübarizəsinə və onların milli lideri General Molla Mustafa Barzaniyə rəğbətini belə vəsf etmişdir:

**Mən gizlədə bilmərəm qranit qürurumu,**
**Əzəldən cəsurların, mərdlərin heyranıyam.**
**Topların qarşısında, tankların qabağında,**
**Daşla, yabayla çıxan kürdlərin heyranıyam.**
**Güclüdür fatehlərin topu, tankı, raketi,**
**Vulkanların üstündə cırtdanlar dura bilməz:**
**Prezidenti dağlarda səngər quran millətin,**
**Azadlıq amalını tanklar susdura bilməz!**
**Toplar susdura bilməz!**

***"Yeni zirvələr" kitabı***



Xalqımızın çox sevimli insanpərvər, həqiqət tərəfdarı, demokrat **Xalq şairi Söhrab Tahirin** kürd xalqı haqqında çox yüksək fikirləri var. Onunla apardığım müsahibələrin birində, mən kürdlər ifadəsi işlədəndə, Söhrab müəllim mənim sözümü yarımçıq qoyaraq : "Sənə qurban olum, kürdlər demə, böyük kürd xalqı de və ya sadəcə kürd xalqı de. Sən kürd olsanda, mənim qədər kürd xalqını tanıya bilməzsən. 1946-cı ildə Şah bizi Kirmanşaha, Kürdüstanın şəhərlərindən birinə sürgün etdi. Orda kürd qardaşlarımız bizə o qədər qayğı ilə yanaşdılar ki, biz mühacirətdə olduğumuzu demək olaraq ki unutmuşduq.

Bir dəfə mən yoldaşlarımla Bisitun dağından qayıdırdıq, o zaman Kürdüstan Qurtuluş Ordusu ilə Şah ordusu arasında müharibə gedirdi. Gördüm bir kürd fədaisi, bir şah pastargahı (polisi) ilə ucadan danışır. Danışıqdan məlum oldu ki, kürd fədaisi öz 8-9 yaşlarında bir oğlan uşağını rastargaha verərək, beşatılanını ondan almaq istəyir. Lakin pastargah razı olmaq istəmir. Sonda pastargahı razı saldı, öz doğma oğlunu onun qucağına qoydu və beşatılanı ondan alıb, öpüb çiyninə asdı və dağlara qəhrəmanlar diyarı Kürdüstanın azadlığı uğrunda mübarizəyə getdi, ama öz oğlunu öpmədi, öz doğma oğlunu öpmədi. Mən inanıram belə övladları olan xalq, nəvaxtsa öz azadlığını, müstəqilliyini əldə edəcək."

-Azərbaycanın görkəmli şairi və alimi **Qasım Qasımzadə** "Qəzəbli dağlar" poemasını kürdlərin milli-azadlıq mübarizəsinə həsr etmişdir. Poemada deyilir ki, üsyançı və əyilməz bir qoca kürdü həbs edirlər. Qocanı döyüb ölümcül hala salırlar, ondan bir kəlmə qopara bilmirlər. O susur. Lakin:

**Bu sükut söyləyir:**

**-Alçaq, yaramaz,**
**Ağalar bir yolluq eşidin bunu:**
**Qəzəbli dağlardan qoparmaq olmaz,**
**Qazi Məhəmmədin ölməz ruhunu!**
**Yenə öz gücünü toplayıb əgər,**
**Ona qılınc çəksə bütün fitnə-şər,**
**Kürdü dediyindən döndərə bilməz,**
**Məsəldir ki, polad sınar, əyilməz!**

Qocanın oğlunun ömür-gün yoldaşı qucağında körpə uşaq, qaynatasına baş çəkməyə gəlir. Zindan rəisi bu dağ gözəlini həyətdə görüb, ona şit sözlər deyir və güman edir ki, onu yoldan çıxara biləcəkdir.

**Keçirdi qəlbindən elə bu zaman,**
**Minbir çirkin əməl rəyisi zindan.**
**Lakin o bilmirdi o dağ gəlini,**
**Tutmuş başı üstə namusu bayraq.**
**Qaldırsa bircə yol iti əlini**
**Onun sinəsini parçalayacaq.**
**Lakin o bilmirdi, qara qaşını,**
**Kürdüstan gözəli nə üçün çatmış.**
**Neçə şərəfsizin kəsib başını,**
**Ərinin ayağı altına atmış.**

Gəlin qaynatası ilə görüşür. Qocanın körpə oğlan nəvəsi babasının qollarındakı paslı zənciri dartır, onu açmaq üçün inad göstərir. Qoca nəvəsinin bu hərəkətindən fərəhlənir.

**Qoca nəvəsini görüb inadkar,**
**Gün kimi açıldı qaşı-qabağı.**
**Dedi: -Bürünsə də dumana dağlar,**
**Zindana dönsə də vətən torpağı,**
**Nəslimiz igiddir, işimiz haqdır,**
**Əsarət zənciri qırılacaqdır.**
**Qızım, çəkinmirəm əsla ölümdən,**
**Oğlum qoymayacaq yerdə qanımı.**
**O da ələ keçsə, inanıram mən,**
**Nəvəm alacaqdır intiqamımı.**



-Qəhrəman kürd xalqının ürək dostu, demokratiya carçısı, haqqı-ədaləti hər şeydən üstün tutan, Azərbaycanın görkəmli xalq şairi, türk xalqının böyük oğlu **Bəxtiyar Vahabzadə** kürd xalqının azadlıq mübarizəsinə biganə qalmamışdır. Şair ərəb əsgərlərinə üz tutub deyir:

**Azadlıqdır,azadlıq,**
**Bu gün davası kürdün.**
**Əlçatmaz dağlar olmuş,**
**Doğulandan bu yerdə,**
**Yurdu-yuvası kürdün.**

**Kürd dağlara çəkilmiş,**
**Onun azadlığına**
**Xətər dəyməsin-deyə.**
**Kürd dağlara çəkilməz,**
**Dağlar kimi başını**
**Heç vaxt əyməsin-deyə.**
**Əyməkmi istəyirsən**
**Sən o vüqarlı başı?**
**Yox, yox! Bu mümkün deyil,**
**Ətəyindən tök daşı.**

***"İnsan və zaman" kitabından***

# Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri



**Cəmil HƏSƏNLİ**
*Tarix elmləri doktoru, professor*

***"Media forum" saytı tarixçi alim Cəmil Həsənlinin "Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri (1920-1923)" araşdırmasını oxuculara təqdim edir.***

**Əvvəli ötən sayımızda**

Həmin günlərdə Moskvada gizli danışıqlar aparan erməni nümayəndələrinə Rusiya sovet hökumətinə çatdırılmaq üçün Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında 1920-ci ilin aprel ayının 29-da keçirilmiş IX erməni qurultayının qərarı göndərilsə də, bu müraciətə əhəmiyyət verilmədi.

Sənədlərin araşdırılmasından aydın olur ki, yeni formalaşan Azərbaycan XKS-nin 1920-ci ilin may ayında belə bir dekreti olmayıb. Bu hadisənin daha çox 1921-ci ilin may ayında olması ehtimalı mümkündür. Çünkü həmin vaxt Ermənistan KP MK-nın plenumu 1921-ci ilin may ayının 23-də Hakop İoannisyanı Ermənistanın Dağlıq Qarabağda müvəkkili təyin etmişdi. Bu qeyri-qanuni addıma Azərbaycan tərəfinin hər hansı reaksiyasının olması mümkündür.

Lakin Ermənistan bu təyinatdan səssiz-küysüz geri çəkildiyindən və məsələ Qafqaz Bürosunun iyunun 3-də keçirilən plenumunun gizli müzakirəsinə keçirildiyindən Azərbaycan XKS-nin 1921-ci ilin may ayında Qarabağla bağlı hər hansı dekret verdiyinə Xalq Komissarlar Sovetinin dekretləri siyahısında rast gəlinmir.

* * *

Lakin Qarabağın həm dağlıq həm də aran hissəsinin bir inzibati idarəçilikdə birləşdirilməsi haqqında AK(b)P MK-nın Rəyasət Heyətinin 20 iyun tarixli qərarı Zaqafqaziya Diyar Komitəsinin 1923-cü ilin iyun ayının sonunda keçirilən plenumunda bəyənilmədi. Ona görə də 1923-cü ilin iyulun 1-də keçirilən AKP MK Rəyasət Heyətinin iclasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə təklif edildi ki, Xankəndi mərkəz olmaqla Dağlıq Qarabağın muxtariyyəti məsələsini dekretləşdirsin. Mərkəzi Komitənin Rəyasət Heyətinin qərarına görə, dekretdə göstərilməli idi ki, Dağlıq Qarabağın sərhədləri və digər məsələlər xüsusi komissiya tərəfindən müəyyən ediləcək və icraiyyə komitəsi qurulana qədər Karakozov başda olmaqla 5 nəfərdən ibarət inqilab komitəsi, Manusyan başda olmaqla 5 nəfərdən ibarət vilayət partiya komitəsi yaranmalı idi.

Dağlıq Qarabağın sərhədlərini müəyyən etmək üçün Ə.Qarayevin sədrliyi ilə Karakozov, Sviridov, Çingiz İldırım və Dadaş Bünyadzadədən ibarət komissiya yaradılması təklif edilirdi. Komissiya 7 gün ərzində öz təkliflərini MK-nın Rəyasət Heyətinə verməli idi. İyulun 4-də bu təkliflər Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinin iclasında təsdiq edildi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarının birinci bəndində göstərilirdi: "Qarabağın dağlıq hissəsində mərkəzi Xankəndi olmaqla muxtar Qarabağ vilayəti yaradılsın".

Üç ilə yaxın davam edən hazırlıq işlərindən sonra, nəhayət, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi 1923-cü ilin iyul ayının 7-də respublikanın tərkibində Muxtar Qarabağ Dağlıq Vilayətinin yaradılması haqqında dekret verdi.

Azərbaycan MİK sədrinin müavini Mir Bəşir Qasımovun və MİK-in katibi Mahmud Xanbudaqovun imzaladığı dekretdə göstərilirdi (Müxtəlif dillərə tərcümə edilmiş "Qarabağ: Real tarix. Faktlar. Sənədlər" kitabının müəllifləri Y.Mahmudov və K.Şükürov 1922-ci ilin avqustundan 1923-cü ilin dekabrına qədər Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin katibi işləmiş Mahmud Fərəc oğlu Xanbudaqovu (1898-1937), 1922-1924-cü illərdə Azərbaycan K(b)P MK katibi işləmiş Eyyub Şirin oğlu Xanbudaqovla (1893-1937) səhv saldıqlarından dekretin Ə.M.Xanbudaqov (E.Ş.Xanbudaqov olmalıdır - C.H.) tərəfindən imzalandığını yazırlar): "Hansı formada təzahür edir etsin, milli zülmün və milli bərabərsizliyin aradan qaldırılması, milli düşmənçiliyin və nifrətin zəhmətkeşlərin beynəlmiləl həmrəyliyi ilə vahid ittifaq dövlətində xalqların qardaşcasına əməkdaşlığı ilə əvəz edilməsi fəhlə-kəndli inqilabının və sovet hakimiyyətinin əsas vəzifələrindən biridir. Bu vəzifəni yerinə yetirmək üçün Azərbaycan Sovetlərinin Mərkəzi İcraiyyə Komitəsi qərara alır: Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Xankəndi qəsəbəsi mərkəz olmaqla Azərbaycan SSR-in tərkib hissəsi kimi muxtar vilayət təşkil edilsin".

Muxtar Qarabağ Dağlıq Vilayətinin yaradılması barədə Azərbaycan MİK-nin bu dekretindən iki həftə sonra vilayətin İnqilab Komitəsinin tərkibi MİK-nin Rəyasət Heyətinin və Azərbaycan XKS-nin birgə iclasında təsdiq edildi. A.Karakozovun sədrliyi ilə beş nəfərdən ibarət olan inqilab komitəsinə B.Bünyatov, Kostonyan, Kafiyev (Kafiyan - C.H.) və Çalyan daxil idilər. Eyni zamanda muxtar vilayətin əsasnaməsinin hazırlanıb başa çatdırılması işi iclasın qərarı ilə Karakozov, Bünyatov, Çalyan, Vareykis və Manusyandan ibarət komissiyaya tapşırıldı. A.Karakozova həvalə edildi ki, komissiyanın iclasını təşkil etsin və bir həftə müddətinə işi başa çatdırsın.

Muxtar vilayətin beş nəfərdən ibarət olan inqilab komitəsinin tərkibində yeganə azərbaycanlı olan Bəşir Bünyatovun iştirakı sırf formal xarakter daşıyırdı. Bunu az sonra, 1923-cü ilin yanvarında Şuşa qəzası İcraiyyə Komitəsinin sədri təyin edildikdən sonra o özü də hiss etməyə başladı və 1923-cü ilin sentyabrında S.Kirova məktubla müraciət edərək xahiş etdi ki, onu mənəvi məhvdən xilas etmək üçün Qarabağda tutduğu vəzifədən azad etsin.




O yazırdı: "Xüsusən ona görə ki, Qarabağda işlərin yenidən təşkilindən sonra məni orada saxlamağa heç bir zərurət yoxdur, zira əhalinin müsəlman hissəsi mənə satqına baxan kimi baxır".

* * *

Şuşa şəhər əhalisi Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsinin qəti şəkildə əleyhinə idi. Hətta 1923-cü ilin əvvəllərində Şuşa şəhər əhalisinin toplantısında Bəşir Bünyatovun məruzəsindən sonra Bakıya göndərilmək üçün nümayəndə heyəti seçilmişdi ki, Qarabağın muxtariyyət məsələsində ciddi dəyişikliklər edilməsi məsələsini Mərkəzin qarşısında qaldırsın. Sergey Kirov həyəcanlı şəkildə A.Karakozov və Bəşir Bünyatovdan hesabat tələb edirdi və soruşurdu: "Təcili olaraq məlumat verin bu nə məsələdir".

Qarabağın muxtar vilayət hüdudlarından kənarda qalan əraziləri hesabına isə Ağdam, Cəbrayıl və yeni bir münaqişə mənbəyi kim Kürdüstan qəzaları yaradıldı. Halbuki az sonra, 1937-ci ildə SSRİ də keçirilən və nəticələri siyasi mülahizələrə görə ləğv edilən əhali sayımının nəticələri göstərdi ki, Azərbaycanda 10 878 nəfər kürd əhalisi yaşadığı halda Ermənistanda onların sayı 22 313 nəfər idi.

Elə Muxtar Qarabağ Dağlıq Vilayəti haqqında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti elan edilən gün Qarabağ muxtariyyətinin sərhədlərini müəyyən edən komissiyada MQDV ilə sərhəddə Kürdüstan muxtariyyətinin yaradılması ideyası səsləndirildi. Lakin iyul ayının 16-da keçirilən AK(b) MK-nın Rəyasət Heyətinin iclasında bu ideyadan imtina edildi və Kürdüstan qəzası yaradılmasına qərar verildi. İyulun 21-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və respublika Xalq Komissarları Soveti bu qərarı təsdiq etdi.

Əgər Muxtar Qarabağ Dağlıq Vilayətinin yaradılması haqqında Azərbaycan Mərkəzi İcraiyə Komitəsinin dekretinə diqqət yetirilərsə, bu dekretlə RK(b)P MK-nın Qafqaz Bürosunun 5 iyul qərarı arasında mühüm bir ziddiyyət var. Qafqaz Bürosunun qərarında yazılırdı: "İnzibati mərkəzi muxtar vilayətin tərkibindəki Şuşa şəhəri olmaqla ona geniş vilayət muxtariyyəti verilsin". Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul dekretində isə qeyd olunurdu ki, "Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Xankəndi qəsəbəsi mərkəz olmaqla" muxtar vilayət yaradılsın. Bu ziddiyyət nə ilə bağlı idi?

Məsələ bundadır ki, iyul ayının 7-də Muxtar Qarabağ Dağlıq Vilayəti haqqında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti elan olunarkən Şuşa şəhərinin onun tərkibində olması nəzərdə tutulmamışdı. Yalnız həmin dekretdən iki həftə sonra, 1923-cü ilin iyul ayının 21-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinin və Xalq Komissarları Sovetinin birgə iclasında Dadaş Bünyadzadə Dağlıq Qarabağ üzrə komissiyanın məruzəsi ilə çıxış etdi və həmin məruzənin müzakirəsindən sonra 8 bənddən ibarət qərar qəbul edildi. Həmin qərarda göstərilirdi: a) Dağıdılmış Skobelevski rus kənd cəmiyyətinin azad torpaqları muxtar Qarabağın ərazisinə daxil edilsin; b) Şuşa şəhəri Muxtar Qarabağ Dağlıq Vilayətinə daxil edilsin.

Başqa səbəb də var. Şuşa yeni yaradılan muxtar vilayətin ərazisində yeganə şəhər idi və bu şəhərin əhalisini başlıca olaraq azərbaycanlılar təşkil edirdi. Ermənilər ehtiyat edirdilər ki, vilayət mərkəzi kimi Şuşa şəhərinin azərbaycanlılardan ibarət olması muxtar qurumda hakimiyyət orqanlarının onların nəzarətinə keçməsinə gətirib çıxara bilər. Məhz ona görə də onlar Qarabağda yeganə mərkəz ola biləcək bu şəhərə deyil, onun yaxınlığında azərbaycanlıların yaşadığı kənd tipli Xankəndi qəsəbəsinə üstünlük verdilər.

**Ardı var**



Dursunê Temir

# Helepçe

Barya Helepçê bombê kîmyayê,
Ji erşê esmîn dûman berdayê.
Çiqas şehîd bûn bona azayê,
Millet ber dujmin nehate rayê.

Miraz çevada mirna bi ezav,
Pênc hezar însan zarok, dayîk, bav.
Hîştin xwîn mija laşa li ber tav,
Neyarê devxwîn mal kirin xerav.

Ew şêr û piling wek çya û zinar,
Li ser axa sar hatin jorda xar.
Wir teyrê bazî dinê kir hewar,
Xwîn mijê Seddem bûye qetilkar.

Helepçe mera Medîne û Mek,
Me ne hêvişand tu qewat û çek,
Dujmin dujminra himber me bûn yek.
Meydana cengê em dihiştin tek.

Sûcê me çi bû, qet kes nabêje,
Li ber berê dê, dergûş namije,
Ew ne jî digrî, ne jî diqîje.
Çeva qul dike ceger dipêje.

Ey zalim xwînmij, hûn nebin kubar,
Pênc hezar qir kir, qet hûn nakin ar.
Millet azayê pir dike bawar,
Hûnê bistînin tim derbê xedar.

Em çawa bîrkin ewan şehîdan,
Ew ketne paşla axa Kurdistan.
Baqê gul-sosin hejya li destan,
Kurd we bîr tînin li hemû cihan.

We ax hemêz kir, me da hevda mil,
Qiryan wek kanav, ji dest êşa dil,
Helepçe şênbe, yê bistrê bilbil,
Dû te cîhanê nebe tu qetil.



Barîyê Bala

# Ax, Helepçe!

***Ez vê helbesta xwe, rewayî pênc hezar şehîd û panzdeh hezar birîndarê bajarê Helepçeyê bê gune dikim, kîjanî ku 16-ê meha adarê di sala 1988-ê bi emrê Seddam Huseynê faşîst, bi bombê jehrê hatine kuştin û birîndar kirin. Ew birîndarana heta roja îro jî, nolî birîndarê Xêrosîma û Nagasakîyê dizêrin.***

Ro şa dibû, ro dikenîya, ro direvî,
Hulm ra dibu, feliqî bûn av û herrî.
Xewa şirîn hişyar bûbûn hemû bînber,
Keti bûne lec-hucetê dîsa xêr-şêr.
Teyrik, tûya bask lêdidan xar û beze,
Dûmeqeska çê dikirin hêlîn teze.
Kew û bilbil melisî bûn ser hêlîna,
Hirçên xewwar derketi bûn dora lana.
Kerî bir-bir ketibûne berek besta,
Qaz-qolinga perwaz dikir nava deşta.
Berfegula rinde kewrek dikir nazî,
Sur-seqemê xilas dibûn darên tezî.
Bahar dihat, dixemilîn berroj, beyar,
Koçervana kivş dikirin îdî şûn, war.
Kevanîya raxistibûn rijde, firdik,
Lez dipetin kade, bişî, him jî totik.
Pîredêya derxistibûn kakil, kuncî,
Kalebava ji şa bûna ne digirtin cî.
Bir, gasêtek, dileyîstin, zilam bê xem,
Êxisti bûn cilên zirav, him cilên germ.
Dotên esmer bindarûka dikir qelok,
Zara eşq-şa çêdikirin bûkik, malok.
Bistan dêv da dihênicîn dergûş bê tirs,
Bûk-xatûna ji emrên xwe dikirin qis.
Bayê nermik ji bajarê dianî mizgîn,
Xorta dişand mala keça îdî xazgîn.
Evê demê Seddamê har kire civîn,
Fermanekda, nolî kelba kire murmîn.
Gilêz dêvket, lêv lê hejyan, kire gazî,
Dêm pirpişî ji tew Kurda bû nerazî.
Çev pelijîn, dêm lê reş bû, hejiya, leqiya,
Got: - Ewil Helepçê bînin xeza hêwurze,
Kafûkûn bûn, tev şewitîn kevn û teze.
Alav, dûman quloz bûne erşê-ezmîn,
Xêrosîma, Nagasakî bûne mizgîn.
Xûn bû dehr, kişya, kete çela, korta,
Qirîn, qûjîn kete nava keça, xorta.
Dayîk şaş man, pîra lûvand, kirin gazî,
Bînber helyan, bûne alav, bûne kozî.
Pênc hezar kes şehîd ketin ewê demê,
Panzdeh hezar bûne dexsû, ketin xemê.
Ro girîya, zer leqîyan, gul çilmisîn,
Behrên bêbin ketin şînê, tew qerisîn.
Çiya, banya kirin hewar, bû virtonîk,
Axê jehr mêt, reş xemilîn derî, şêmîk.
Laş bûne part, kî bûna wan ne hat xanê,
Hovî Seddam bersîv neda li pêş dinê.
Ax! Ax! Ax Helepçe!
Ax Helepçe, wax Helepçe,
Daxa dilê me Helepçe,
Nav xûnê da xeniqîyî,
Nav jehrê da mehiqîyî.
Cejna Newroz boy te reş hat,
Bê heyf naçî, tu Helepçe.
Kurd "tirseke", ev nebûye,
Kurd "mexmûne", kê gotîye?
Kurd mêrxase, ev eyane,
Kurd bedbexte, ev beyane.
Ax Helepçe, wax Helepçe,
Birîna dilê me Helepçe,
Bê heyf naçî, tu Helepçe!



Şamil Əsgərov

## Çətin

Həyat həm şirindi, həm acı zəhər,
İçməmək də çətin, içmək də çətin.
Həyat həm zülmətdir, həm aydın səhər,
Seçməmək də çətin, seçmək də çətin.

Əkizləşib ömrün sevinci-qəmi,
Azdır dərdə yanan könül həmdəmi.
Həyat bir sünbüllü, tikanlı zəmi,
Biçməmək də çətin, biçmək də çətin.

Gah sərin, gah şaxta, gah isti-bürkü,
Birəsiz olmayıb əyninin kürkü.
Həyatın dağlardan ağırdı yükü,
Çəkməmək də çətin, cəmək də çətin.

Dünya yaranandan ikibaşlıdı,
Kimi şad, kimisi gözüyaşlıdı,
Şamıləm, yolları yaman daşlıdı –
Keçməmək də çətin, keçmək də çətin.

## Şeşələnməsin

Boş yerə özünü bənzədib şirə,
Tülkü kola girib meşələnməsin.
Tutub qulağından çəkərlər zirə,
Özgə yerişinə peşələnməsin.

Acgöz el malını çapıb ötürdü,
Boynuna alçaqlıq yükü götürdü.
Ürəyi qərəzdən kələ-kötürdü,
Nahaq cilalanıb şüşələnməsin.

Yerə düşəcəksə demə sözünü,
Daşa ağız açıb yorma özünü.
Çalış al həmişə işin gözünü,
Cəhd eylə üstünə iş ələnməsin.

Deyin atasından xəbərsiz bicə,
Burnu ovulanda dönəcək gicə.
Xalqın gəmisinə girib gizlicə,
Qoy eşənək atıb eşələnməsin.

Bir alçaq dindirdi müdrük babanı,
Cavab aldı: - İgid satmaz obanı.
Kişi el qəlbində qursun yuvanı,
Qoltuqlar altında guşələnməsin.

Başı uca olan, sür ömür, sür gün,
Kim səni nahaqdan eyləsə sürgün.
Payını alacaq axırda bir gün,
"Mənəm-mənəm"- deyib nəşələnməsin.

Əməli yaramaz öyünüb şişər,
Şamil, ona yəqin qurular məhşər.
Elin qəzəbindən qırılıb düşər -
Özgə buynuzuyla şeşələnməsin.

## Gördüm

Ələk-ələk etdim mən bu dövranı,
Astarını gördüm, üzünü gördüm.
Qənimi olubdu insan insanın,
Əyrisini gördüm, düzünü gördüm.

Şüşədə olsa da divlərin canı,
Axtarıb tapmadım onu qıranı-
Zalımın günahsız eli-obanı,
Yandıran odunu, közünü gördüm.

Öz altından su yeridən samanın,
Pambıq ilə başı kəsən fərmanın,
Barmağı məkrli ala şeytanın,
Əllisini gördüm, yüzünü gödüm.

Şamıl Dəlidağam, bədin, xəbisisn,
Yamanlığa, nahaq qana hərisin,
Çoxlarına tələ quran iblisin,
Axırda tələdə özünü gördüm.

## Olmasaydı

Dünyanın üyəyi qan ağlamazdı,
Əldən-ələ keçən zər olmasaydı.
Bəşərin qəlbində dərd çağlamazdı,
Pul zülmü fırladan pər olmasaydı.

Beşi sanamazdıq dördü bilməsək,
Namərdi sezməzdik mərdi bilməsək.
Sevinci duymazdıq dərdi bilməsək,
Zəhmət görünməzdi tər olmasaydı.

Dayaz bəlli etdi dərini bizə,
Acı nişan verdi şirini bizə.
Pis dedi yaxşının yerini bizə,
Qorxaq bilinməzdi ər olmasaydı.

Qaranı görəndə ağı tanıdıq,
Şoranı görəndə bağı tanıdıq.
Təpəni görəndə dağı tanıdıq,
Tülkü tanınmazdı nər olmasaydı.

İnsanın göz yaşı gölə dönməzdi,
Heç kimin əməli felə dönməzdi,
Şamılın qəzəbi selə dönməzdi,
Böhtan olmasaydı, şər olmasydı.



Hüseyn Kürdoğlu

## OD-OCAĞIM DAĞILMIŞ

Dərd əlindən min dağı var sinəmin,
Ata yurdum dağım-dağım dağılmış.
Behiştdən də gözəl idi Laçınım,
Bilirsənmi nə növrağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

Yaralıyam, yaralıyam, yaralı,
Qara bağrım yüz yerindən paralı.
Baba ruhu küsüb keçir aralı,
Min bir illik od-ocağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

Qanlı gündə qana döndü bulaqlar,
Şərbətinə yetməz təşnə dodaqlar.
Güllələnib çiçək açan budaqlar,
Baltalanıb bağça-bağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

Baxtım döndü, idbar oldu gözəlim,
